# Ş ə h i d l ə r

1990-cı ilin 20 yanvarında Azərbaycanın azadlığı uğrunda şəhid olanlara ithaf olunur.

Qovuşanda nura, nuranlı mələklərlə şəhidlər,
Çalxalar göyləri əfqanlı mələklərlə şəhidlər.
Qara zülmətli gecə qəm sazı köksumdə sızıldar,
Can vidalaşmada cananlı mələklərlə şəhidlər.
Tərk edər zahiri dünyanı yağış güllələrilə,
Min şikayətli qəm əfşanlı mələklərlə şəhidlər.
Yaralı ellərin ah şairi düşkün dəli gözlər,
Gözlər çala üsyan göyü leysanlı mələklərlə şəhidlər.
Eşqi mənada görən aşiqə can qurban edirsə,
Qızlar ətrafını heyranlı mələklərlə şəhidlər.
El qiyam eyləmədə zülmətə qarşı səhər ikən,
Yaradar tarixi peykanlı mələklərlə şəhidlər

Ey görünməz gözə, ey rəhbəre haqq ayəti gəl-gəl,
İntizarındadı quranlı mələklərlə şəhidlər.
Yenə Musa çıxaraq ture təcəllayə şəfəqlə.
Seyr edər aləmi urfanlı mələklərlə şəhidlər.
Gecə tanrıyla pıçıldar analar qəmli nəfəslə,
Məclisi qəmdə pərişanlı mələklərlə şəhidlər.
Can Azərbaycana top-tankıyla yağdıqca fişənglər,
Çıxdı istiqbala üsyanlı mələklərlə şəhidlər.
Ərfəvan, kəbeye eşqin ocağı sönməyəcəkdir,
Çün micövdarıdır ünvanlı mələklərlə şəhidlər.

Məhəmməd Ərfəvan,
Cənubi Azərbaycan

Dan ulduzu 13 sentyabr,1991.